**Zülfiyyə Hüseynova**
*Azərbaycan Dillər Universiteti*

**10.30546/2518-752X.1.601.065**

# ÇAĞDAŞ AZƏRBAYCAN NƏSRİNDƏ MİFOLOJİ ZAMAN

***Açar sözlər:*** *mifologiya, mifopoetika, zaman anlayışı, çağdaş Azərbaycan nəsri, mifoloji təfəkkür*

***Keywords:*** *mythology, mythopoetics, concept of time, contemporary Azerbaijani prose, mythological thinking*

***Ключевые слова:*** *мифология, мифопоэтика, категория времени, современная азербайджанская проза, мифологическое мышление*

**Giriş.** Mifologiya bədii düşüncənin formalaşmasında mühüm rol oynayan ən qədim mənəvi sistemlərdən biridir. Qədim mədəniyyətlərdə gerçəkliyin rəmzi-obrazlı şəkildə yeganə doğru bilinən izahı məhz mifdir. A.Losev mifi düşüncənin və həyatın ən vacib, ən zəruri kateqoriyası hesab edir və deyirdi ki, "Mifdə təsadüfi, uydurma və fantastik heç nə yoxdur, o, ən yüksək dərəcədə konkret və əsl gerçəklikdir" [8, s.18]. "Mifin poetikası" əsərində Y.M. Meletinski qədim və orta əsrlər mədəniyyətinin bütün sahələrində mifologiyanın hakim mövqeyindən danışarkən həmçinin vurğulayır ki, antik və orta əsrlər ədəbiyyatında ənənəvi miflərin bədiiləşdirilmiş, qeyri-iradi, tənqidi, ironik interpretasiyalar var. XX əsrdə mif nəzəriyyələri mif, onun funksiyaları və strukturu haqqında anlayışı, eləcə də fərdi və yaradıcılıq psixologiyaları ilə bağlılığına dair təsəvvürləri ölçüyəgəlməz dərəcədə genişləndirib dərinləşdirmiş, üstəlik bədii düşüncənin inkişaf qaynağı və bəlkə bütün zamanlarda qəlibi olduğu gerçəyini üzə çıxarmışdır. Etnik-mədəni ənənə çərçivəsində insan davranışının bütün mühüm paradiqmalarını yaradan mif mədəniyyətin fundamental əsasını təşkil edir. J.Le Qoff haqlı olaraq qeyd edir ki, "müasir dövrün insanının şüurunda qədimliyin çoxlu sayda özəlliklərini müşahidə etmək mümkündür" [6, s.206].

Ümumən, mifoloji düşüncədə gerçəkliyə özünə məxsus yanaşma tərzi vardır və bu düşüncə dünyanın təsnifində həmin gerçəklik faktlarının keyfiyyət səciyyəsinə əsaslanır. Mifoloji düşüncədə kollektivin psixologiyası, təcrübəsi, duyğu və düşüncəsi əksini tapır. Bu mənada mifoloji ənənə əsla fərdi duyğuların, düşüncə və təsəvvürlərin ifadəçisi deyil. Doğrudan da, məhz mifologiya ədəbiyyatın canına nə qədər çox hopursa, bir o qədər də çox özünəməxsus süjet və formalar meydana gətirir. Ayrı-ayrı xalqların ədəbiyyatı buna sübut olaraq göstərilə bilər.

Mif istər qədim mifologiyanın ənənəvi süjet və mövzularını yenidən mənalandıran, istərsə də mifin kateqoriyalarını düşünülmüş şəkildə və yaxud təhtəlşüurla istifadə edərək yeni mifoloji konstruksiyalar yaradan neçə-neçə qələm sahibini getdikcə daha çox özünün cazibə dairəsinə daxil etməkdədir. Həmin söz ustalarının adlarının tam olmayan və sistemsiz siyahısı belə müasir ədəbiyyatın mifə münasibəti problemi üzərində tam ciddiyyəti ilə düşünməyə məcbur edir.

Müxtəlif tarixi şəraitlərdə mifin təbiəti ilə bağlı bir sıra mücərrəd fəlsəfi mühakimələr və şərhlər mövcud olmuşdur. Mifin həqiqi gerçəklik kimi anlaşılması, alleqoriya olaraq qəbul edilməsi, təxəyyülün məhsulu olması və s. bunlardan yalnız bir neçəsidir. Mifin bir-birinə son dərəcə ziddiyyət təşkil edən şərhlərinə bu şərhlərin hətta ən erkən mərhələlərindən etibarən rast gəlinir. Əslində elə bu gün də "mif" istilahı elə bir çoxmənalılıq kəsb etmişdir ki, konkret hər bir halda onun məhz hansı anlamda işlədildiyi açıq-aydın dəqiqləşdirilməlidir.

XX əsrdə ədəbiyyatın bir çox istiqamətləri mifologiyaya düşünülmüş formada müraciət etmişdir. "Mif" anlayışında, etiraf olunmalıdır ki, müəyyən yayğınlıq və qeyri-konkretlik var. Bir sıra tədqiqatçıların gəldikləri ən ümumi qənaətlərə əsasən, mifologiya geniş mənada başa düşülərsə, o zaman məlum olar ki, yazılı ədəbiyyat yazıyaqədərki ədəbiyyatdan heç də az mifoloji deyildir. Eyni zamanda bədii düşüncənin köklərini araşdırarkən arxaik mərhələdə hansısa obrazlılıqdan və ya bədii düşüncə faktından da danışmaq olmur. Bədii-estetik düşüncənin həmin mərhələsindəki bütün ictimai şüur mifopoetik səciyyəli bir düşüncə tipi olaraq qiymətləndirilə bilər. Bir sıra müəlliflərin fikrinə görə, "mifopoetika" istilahı bədiiliyi: təhtəlşüurla gələn mifi ədəbi əsərin strukturuna onunla vəhdət təşkil edəcək şəkildə yeridilən mifdən ayırmaq istəyindən meydana gəlmişdir. Beləliklə, "mifopoetika" anlayışının ədəbi əsərdə mifoloji başlanğıcın bütün mümkün formalarını özündə təzahür etdirib, etdirməyəcəyi mübahisəli olaraq qalmaqdadır.

Y.Meletinskin təhlilinə əsasən mədəniyyətin zamandankənar əbədi canlı mahiyyəti kimi mifi ilk öncə arxaik söz sənətilə əlaqələndirərkən həmçinin "bədii obrazlılığın mifoloji təfəkkür tipi ilə, bədii sözün özünün mifolojiliklə genetik bağlılıqda olduğu" qeyd edilmişdir [9, s. 50]. Çağdaş ədəbiyyatdakı bədii mifologizm üçün, müasir mif yaradıcılığı üçün əlverişli zəmin də öz kökləri etibarilə həmin bağlılığa söykənir.

XX əsrdə mifoloji təfəkkür və mifin kateqoriyaları ilə bağlı humanitar elmin gəldiyi qənaətin ən ümumi ifadəsini mifdən ədəbiyyata yolu bütünlüklə izləyən Y. Meletinskinin: "Bəşər mədəniyyətinin təkamülü boyunca dəfələrlə yenidən canlanan mifin yaşamaq qabiliyyətini bir daha qeyd etmək istərdim... Mifin ali reallığı hər bir harmoniyanın mənbəyi və modelidir. Bax elə buna görə də mif daima canlı olaraq qalır və müəyyən intellektual səviyyədə həmişə özünə yer tapır" [9, s.31] sözlərindən görmək olur. Həqiqətən, XX əsrdə müasir dövrün insanının düşüncə və təcrübəsinin təsvirini vermək üçün "mif" fövqəladə əhəmiyyətli bir anlayış olaraq meydana çıxır.

Mifin müqayisəli-tarixi şəkildə öyrənilməsi, ayrı-ayrı dünya xalqlarında ən müxtəlif görüntülərinə baxmayaraq, başlıca mif süjet və motivlərinin bir-birini təkrarladığı faktını, yəni mif yaradıcılığında xalqların bir-birindən xəbərsiz eyni yollarla gedib, eyni simvollarla işlədiyi gerçəyini üzə çıxardığı kimi "dünya dinləri"nin elmi şəkildə araşdırılması onların da miflərlə dolu olduğu gerçəyini ortaya qoymuşdur.

Mif cəmiyyət həyatı və təbiət hadisələri haqqında təsəvvürdür. Yəni mif danışılan bir tarixçə deyil, yaşanılan bir gerçəklikdir. Mifdə bəşər mədəniyyətinin ən erkən şəkli kimi ilkin məlumatlar, dini inanclar öz əksini tapır. Mifdəki qavrayış anlayışı ənənəvi mənada başa düşülən bilgi qazanmaq deyil, bir dünya duyumudur. Mif süjetlərində insanın özünüdərkinin müxtəlif aspektləri öz ifadəsini tapır. İbtidai və

arxaik cəmiyyətlər üçün varlığı dərk anlamında hər şey demək olan mif zamanın başlanğıcındakı mütləq tarix, insan davranışlarının örnəyi olaraq qəbul edilirdi.

Mifin yüksək mədəni dəyər daşıdığını hələ XVII-XVIII əsrlərdə B.Fontenel, C. Viko, İ.Herder qeyd etmişlər. Bu mütəfəkkirlər mif haqda müxtəlif tədqiqatlar aparmışlar. Fransız B.Fontenel miflərin bünövrəsini intellektin ibtidai geridəqalmışlığında, qədim insanların "fəlsəfi" cəhalətində axtarırdı. Fontenel deyir ki, qədimdəkilər miflərlə əylənirdilər, çünki onlara inanırdılar, biz isə, baxmayaraq ki, inanmırıq, onlardan heç də az həzz almırıq. Fontenelin mif yaradıcılığı və poeziya ilə bağlı əsas fikirləri müasiri C.Viko tərəfindən dəstəklənmişdi. Qəhrəmanlıq miflərində qəhrəmanların gerçək tarixini görən Viko belə hesab edirdi ki, sonrakı dövrlərdə miflər getdikcə təhriflərə uğradılaraq hətta Homerə qədər bayağılaşdırılmış və əslindən uzaqlaşdırılmış olan şəkildə gəlib çatmışdır.

Mifoloji təsəvvürlər yaradılışın bütün məzmununu özündə ehtiva edərək bütöv halında "mifoloji dünya" mənzərəsinin əsasında dayanır. Həmin mənzərə isə mifoloji mətnlər, qədim yazılı ədəbi-mədəni abidələr, sənət yadigarları əsasında bərpa oluna bilir. Bu mətnlər içərisində mifoloji rəvayətlər, sınamalar, yasaqlar, əfsanələr və s. özlüyündə miflə qarışıq olan janrlardır. Lakin mif süjetləri qətiyyən dağınıq deyil, bəlli bir mövzu ətrafında birləşən informasiya xarakterli mətnlər silsiləsidir. Dünya xalqlarında mif mətnləri tipologiyasına görə eyni olub: kosmoqonik (kosmoloji) miflər, etnoqonik miflər və təqvim mifləri adı altında təsnif olunur. Araşdırmalar səciyyə etibarilə bu bölgünün inanc, tapınış və mərasimləri əks etdirən bütün mif mətnlərini əhatə etdiyini göstərir.

Mifin başlıca mövzusu xaosun dəf olunması, kosmosun bərpası, dünyanın nizama düşməsi, yaradılışın sahmana salınmasıdır. Onda olan nə varsa keçmişdədir və mifin də funksiyası bütün bunları izah etməkdir. Bu mənada ilkin yaradılış çağından danışan mif etioloji məzmun daşıyır; o, dünyanın, zamanın yaranmasını, daşqını, kainatın sonunu və eləcə də insan soyunun necə meydana gəlməsini, ölümü, mədəni sayılan nə varsa hamısını izah edir.

Mifoloji şüurun öyrənilməsində növbəti addım alman filosofu E.Kassirerin "Mifoloji düşüncə" əsəri olmuşdu. Əsər onun "Simvolik formaların fəlsəfəsi" kitabının 2-ci cildini təşkil edir. Bu əsərdə B. Malinovski, E.Dürkheym və L.Levi-Brülün, eləcə də R.Otto və H.Uzenerin antik mifologiya ilə bağlı tədqiqlərinə istinad etməklə E.Kassirer özünün mif fəlsəfəsi sistemini işləyib hazırlamışdı. Buradakı başlıca prinsip isə dil və incəsənətlə bərabər mifologiyanın da mədəniyyətin ayrıca simvolik forması kimi götürülməsindən ibarət idi. Kassirer mifoloji düşüncənin özünəməxsusluğunu onun gerçəklə idealı, əşya ilə obrazı və s. ayırd etməməsində görür. Kassirerin ən mühüm xidməti mifik düşüncənin və mifik simvolizmin bir çox fundamental strukturlarını üzə çıxarmasıdır.

Mif nəzəriyyəsində əhəmiyyətli irəliləyiş fransız etnoloqu Klod Levi-Strosun adı ilə bağlıdır. Mifi strukturalizm mövqeyindən araşdıran K.Levi-Stros fransız sosioloji məktəbinin yetirməsidir. Eyni zamanda amerikan mədəni antropologiyasının təsirini də öz üzərində hiss edən etnoloq bu ənənələrlə linqvistik strukturalizm və informasiya nəzəriyyəsindən gələn yeni təsəvvürləri calaşdıra bilmiş, struktur antropologiyanı və ona uyğun olaraq da özünün miflər nəzəriyyəsini yaratmışdır. İbtidai təfəkkürü K.Levi-Stros kollektiv təhtəlşüur kimi izah edirdi. Mifoloji təfəkkürün Levi-Stros tərəfindən işlənib hazırlanmış yeni struktur analizi

müəyyən mənada Levi-Brülün görüşləri ilə ziddiyyət təşkil edir. İbtidai təsnifat və ümumiləşdirmələrdə ikili qarşıdurmaların rolunu müəyyən edən K.Levi-Strosun bir mühüm xidməti də mifə köhnə baxışlarla yeni baxışları bir arada birləşdirə bilməyidir.

Arxaik ənənələrdən ötrü mifin gerçək gücü vardı və onun gerçəkliyinə inam mifoloji personajların həqiqətən var olduğu düşüncəsində də özünü göstərir. K.Levi-Strosa görə, mif eyni dərəcədə keçmişi, indini və gələcəyi izah edir [7, s.186]. Yəni mif özünün bütün variantları ilə bir arada götürüldükdə mövcud sayılır. Buna uyğun surətdə hər bir zaman istənilən mifdən bir başqa mif yarana bilir. Hər bir xalq özünün mifoloji dünyaduyumunu müxtəlif yollarla yaşatmaqdadır. Bəzən bu prosesin gedişi zamanı ilkin formulun bütövlüyü pozulsa belə, onun fərqləndirici əlamətlərini üzə çıxarmaq bir o qədər də çətinlik törətmir.

Mif mətnlərində qorunan mifoloji informasiyaların bilgilərin ötürücüləri təsviri sənət nümunələri, memarlıq abidələri, pir, ocaq kimi təbii obyektlər, rəmzlər və s. ola bilir. Ondakı informasiyanın realizə dərəcəsi də çoxplanlıdır. Həmin bilgilər mədəniyyətdə mövcud mətnlərin müxtəliflik dərəcəsindən asılıdır və ənənənin ən müxtəlif səviyyələrində ötürülə bilir. Y.Meletinskinin də qeyd etdiyi kimi mifologizm mifoloji simvolikanın yardımı sayəsində təhkiyənin qurulmasıdır. Beləliklə, ilk dövrlərdə insanların dünya, yaradılış haqqında düşüncələrini ehtiyacını ödəyən miflərə folklorun qaynağı, sonrakı dövrlərin nağılçılıq ənənəsi, söyləyicilik mədəniyyətində yer alacaq motiv və süjetlərin mənbəyi kimi baxmaq olar.

M.Eliadeyə görə, mifin ənənəvi anlamda başlıca funksiyası insan davranışının model-obrazlarını formalaşdırmaqdır. Mif ümumən insanların davranış qaydalarını, stereotipləri müəyyən edir, həmçinin ictimai dəyərlər sisteminin şərtləndirici amili kimi şəxsiyyətə təbiətdən, cəmiyyətdən və elə onun öz fərdiyyətindən gələn böhranlı anları yüngül keçirə bilməsində kömək olur. Şifahi ənənənin təbiətinin araşdırılması ilə bu cəhət də sübuta yetirilmiş sayıla bilər ki, miflərin dili rəmzləndirmə potensialı baxımından son dərəcə güclüdür. Lakin başlanğıcda onun məzmununda alleqoriyadan, mücərrəd anlayışlardan əsər-əlamət də yox idi.

Araşdırmalar göstərir ki, artıq inkişaf etmiş cəmiyyətlərdə mədəniyyətin hakim forması olmaqdan qalan mif istənilən halda yenə də tamamən yox olmur, insan şüurunun şüuraltı strukturlarında arxetiplər şəklində yaşamaqda davam edir. Bu isə dünyanın mifoloji dərkinin insan psixikası və bəşər mədəniyyətinin ayrılmaz parçası olduğundan gəlir. Miflər bu mənada təkcə yazısız ənənələrin uzaq keçmişdən bu günlərə qalan adi bir mirası, quru yadigarı deyil. O, mənəvi həyatın sadəcə bir parçası olmayıb, bütövlükdə mədəniyyətin canına, qanına hopmuşdur.

XX əsrin mütəfəkkirlərindən H.Qadamer 1954-cü ildə qələmə aldığı "Mif və zəka" yazısında mifləri unikal mədəni dəyərlər kimi nəzərdən keçirir qeyd edirdi ki, elmi və mifoloji dünya mənzərəsi bir-birinin zidd deyildir, mahiyyətcə onların biri digərini tamamlayır: "Mifə din adamlarının yalanı və yaxud nənələrin hekayətləridir deyərək rişxənd eləməyə gərək yox, onlarda müdriklik dolu keçmişin sədasını duymaq gərəkdir" [5, s.94].

Mifologizmi XX əsr ədəbiyyatının səciyyəvi hadisəsi sayan və XX əsr mif yaradıcılığının mədəniyyətin və insanın yenilənməsi vasitəsi olaraq istifadə edildiyini vurğulayan Y.Meletinski mifoloji təfəkkürün bu özəlliyinə də toxunaraq yazırdı ki, "ibtidai insan özünü onu əhatə edən təbiət dünyasından ayıra bilmir və

özünəməxsus olan xassələri təbiət obyektləri üzərinə köçürür. Bu isə insanın təbiətlə öz vəhdətini instinktiv duymasını, stixiyalı anlaşılmanı deyil, təbiəti özündən keyfiyyətcə ayıra bilməməsi üzündən idi" [10, s.164].

Mif sadəcə qədim insanların maraqlarını ödəmək üçün vasitə deyil, həm də onların kollektiv təsəvvürlərinin təhtəlşüurda ifadəsiydi. L.Levi-Brülün fikrincə, mifoloji təfəkkürün mühakiməsi formal məntiqin qanunauyğunluqlarına riayət etməməsidir. Arxaik insan öz kollektiv təsəvvürlərində dünyanı ayrı-ayrı hissələrə, durumlara ayırmır, onu bütöv olaraq obyektivliyin və subyektivliyin, təbiiliyin və fövqəltəbiiliyin, arzu olunanla gerçəkliyin vəhdətində qavrayır. Onun bütün kollektiv təsəvvürləri mifdə təcəssümünü tapıbdır. L.Levi-Brülün fikirləri bu gün də əhəmiyyətini qoruyub saxlamaqdadır. Ədəbiyyat və mif məsələlərindən danışarkən arxetip problemlərinə də toxunan müəlliflər onların təhtəlşüurun strukturlarında yerləşən mənatörədici mərkəzlər olduğunu, bəşəriyyətin mənəvi təcrübəsinin də onlarda toplandığını qeyd edir, məhz onların ilkin sosio-mədəni kodları, düşünən və fəaliyyət göstərən insanlığın universal simvollarım etibarlılıqla qoruduqlarını vurğulayırlar.

Müasir dünya ədəbiyyatının əsas xüsusiyyətlərindən biri mifopoetik şüur elementlərinə qayıdışla bağlıdır. Buna görə də XX əsr mifologiyaya yeni qayıdış dövrü, başqa sözlə, remifologizasiya dövrü adlandırılır. Bu proses antik ənənələri sadəcə davam etdirməmiş, hazır formalarla kifayətlənməmiş, yeni təhkiyə şəkli, məlum mif mətnlərinə dövrün problemləri fonunda bir başqa baxış bucağı əlavə etmişdir ki, nəticədə mif bədii ədəbiyyata ilkin forma və funksiyası ilə deyil, yeni neomifoloji təfəkkürün təzahürü kimi gəlmişdir. Dünya ədəbiyyatı, eləcə də Azərbaycan ədəbiyyatında mifoloji süjet və obrazlara gedərək daha çox üz tutulması, bir tərəfdən, XIX əsrdə reallığın ölçülərinin xeyli genişlənməsi və elmi-texniki inqilablarla, ictimai şüurda baş verən dəyişikliklərlə əlaqəli idi.

Mifoloji təfəkkür bəşər tarixinin bizə məlum olan ilkin inam və etiqadlarının məcmusudur. Müasir dövrdə sənətkarın mif mətnləri və süjetlərinə dönə-dönə üz tutması mənsub olduğu xalqın inam və etiqadlarını yalnız formal şəkildə yenidən yaratmaq məqsədi daşımır, həmçinin mənəviyyata təsir və yaşanılan tarixə yanaşma tərzini öyrədir. Mif və bədii ədəbiyyat arasında bütün dövrlərdə əlaqə olmuşdur. Bu proses həm təkamül, həm də tipoloji aspektlərdə öyrənilmişdir. Təkamül aspektinə görə, mif cəmiyyətin təşəkkül dövrünün məhsuludur və yazılı ədəbiyyatın formalaşmasına da təkan verən əsas prosesdir. Tədqiqatlarda da qeyd edilir ki, "70-80-ci illər nəsrinin mühüm keyfiyyət əlamətlərinin biri də xalqın ən qədim bədii təfəkkürünün məhsulu olan mifologiya və folklora yenidən qayıdışdır...Bu... lokal bir təzahür deyildi: mifologiyaya müraciət XX əsr dünya mədəniyyətinin xarakterik xüsusiyyətinə çevrildi" [2, s.94].

Müasir Azərbaycan ədəbiyyatının xüsusən də nəsr qanadı mifoloji süjet və mətnlərə daha çox üz tutur. Bu mənada xalq yazıçısı Mövlud Süleymanlının yaradıcılığında yer alan mifik obraz və motivlər müəllif ideyasının çatdırılmasında aparıcı vasitə olaraq fərqli üslubi strategiyaya çevrilir. Bir sıra tədqiqatlarda da qeyd olunduğu kimi, müasir Azərbaycan nəsrində mifik təfəkkürün təzahürü Mövlud Süleymanlının bir sıra əsərlərində – "Köç", "Şeytan" və s. qabarıq görünür. Mifoloji düşüncə onun yaradıcılığında sadəcə bir detal, ayrıca bir motiv, obraz, kompozisiya elementi səviyyəsində iştirak etmir, belə demək mümkünsə, bu

yaradıcılığın bütün mayasını təşkil edir: M.Süleymanlının həmin əsərləri başdan axıracan xalqın mifik və etnik psixoloji dünyaduyumu əsasında qurulmuş, mifoloji ruh, baxış bu əsərlərin, necə deyərlər, istisnasız bütün toxumalarına hopmuşdu.

Postmodern əsərlərdə zaman anlayışı xaotik, fraqmental məna kəsb edir. Hadisələr müntəzəm, müəyyən xronologiyaya əsasən inkişaf etmir, "səbəb-nəticə" bağlılığı qırılır. Bundan əlavə, zamanın "sıxlaşması" hallarına da təsadüf olunur. Bu haqda ədəbiyyatşünas Salidə Şərifova "Çağdaş Azərbaycan postmodern romanı" adlı monoqrafiyasında qeyd edir: "Romanda vahid zaman anlamının olmaması bizi hadisələrə əbədiyyət nöqtəsindən baxmağa sövq edir. "Yarımçıq əlyazma" da hadisələrin üç zaman axarında inkişafını müşahidə edirik. Romanda zamanın sıxılması səbəbindən hadisələrin müəllifin yaşadığı zamanda, yəni müasir zamanda, Oğuzların yaşadığı zaman və Şah İsmayıl Xətainin yaşadığı və onun ölümündən sonrakı zaman çərçivəsində istədiyi şəkildə sərbəst hərəkət etməsi və oxucunu fraqmentar şəkildə qısa zaman ərzində bu dövrlərə, daha doğrusu, bu zamandan o biri zamana aparması yazıçının istifadə etdiyi bədii üslubdur" [3, s.42]. Mifoloji yanaşmanın əsərdəki struktur və obrazlara verdiyi dərinlik, eyni zamanda zaman və məkan anlayışının postmodern təsviri ilə birləşərək oxucuda həm tarixi, həm də psixoloji qatları qavramağa imkan yaradır. Belə ki, postmodern poeziyada roman janrı özünəməxsus mövqe tutur. Ədəbiyyatımızdan da postmodernizm cərəyanı yan keçməmiş və öz təsirini göstərmişdir. Professor Nizami Tağısoy "Postmodernizmin bəzi xüsusiyyətlərinə fraqmentar baxış" adlı məqaləsinə nəzər salaq: "Azərbaycan postmodernizminin başlıca xüsusiyyətlərindən biri mifoloji mətnlərdən, motivlərdən, süjetlərdən, obraz və personajlardan yararlanma istəyidir. Mifoloji süjetlərə müraciət Anarın "Ağ qoç, qara qoç", K.Abdullamn "Yarımçıq əlyazma", "Sehrbazlar dərəsi", "Unutmağa kimsə yox" "Kədərli seçmələr" və başqa əsərlərdə nəzərə çarpmaqdadır. Mifoloji qavrayış mistik mahiyyətli olduğundan o, içində keçmişlə gələcək arasındakı münasibətləri qurur, körpü rolunu oynayır. Hər bir milli ədəbiyyatın nüvəsində mifoloji sistem dursa da, müasir dövr ədəbiyyatımızın postmodernist istiqaməti heç də ənənənin müasirliklə sintezindən yaranmır. Əksinə, burada ənənənin aparıcılığına saygısızlıq nümayiş etdirilir"[4].

Müasir ədəbiyyatımızda postmodern romanın ən gözəl örnəklərindən biri də Sabir Rüstəmxanlının "Göy Tanrı" romanıdır.Bu əsərdə hadisələrin inkişaf xətti bizi türk xaqanlarının hökmranlıq etdiyi zamana, təkallahlığın din olaraq inkişafı dövrünə aparır. Baxmayaraq ki, türk xaqanlarının hökmranlığı inkişafında saysız zəhməti olan şəxsiyyətləri əks etdirmişdir, lakin bu roman klassik tarixi roman deyil. S. Rüstəmxanlı əski türk mifologiyasını və yazılı abidələrdən (o cümlədən, Orxon-Yenisey abidələri) istifadə etməklə, çağdaş türk dünyası önündə qoyulan mifik keçmişlə əlaqədar suallara cavab tapır. "Göy Tanrı" – neomifoloji bədii məkanda öz ifadəsini tapmış türkdilli xalqların çağdaş problemləri barədə olan bir əsərdir.

İlqar Fəhmi Koroğlu və Cəlalilər hərəkatı ilə bağlı qələmə aıdığı "Qarğa yuvası" əsərində mifoloji Koroğlu surətinə müraciət qabarıq halda nəzərə çarpır. İ.Fəhminin "Qarğa yuvası" əsərini təhlil edən bəzi tədqiqatçılar onu yarımtarixi roman adlandırır. Belə adlanmasının səbəbi nədir? "Qarğa yuvası"nda müəllif tərəfindən tarixi reallıqların ortaya çıxarılması cəhdi və Koroğlunun həqiqi obrazı deyil, Koroğluya və həmin dövrə yazıçı təxəyyülündən gələn səciyyəvi cəhətlərin əldə olunmasıdır. "Koroğlu" eposundakı qəhrəmanın əksinə, İ.Fəhminin romanın-

dakı Koroğlu obrazına yazıçının əlavə etdiyi qorxaqlıq və bu kimi cəhətlər ilə qarşımızda fərqli bir surət yaranır. Əsərdə Koroğlu islam dininə inanır,məscidi var, yanında molla gəzdiri, Ramazanı qeyd edir.Onun dəliləri də namaz qılır, cin-şeytandan özünü gözləmək üçün özləriylə dua gəzdirirlər,bundan başqa Koroğlunun hərəmxanası var. İ. Fəhmi Koroğlunu igidlik zirvəsindən aşağı endirir, "atan kor edilənə qədər niyə xalq üçün döyüşmürdün" sualını yönəltməklə Koroğlunun əhalini yox, özünü fikirləşdiyi fikrini şişirdir. Eposdan fərqli olaraq romanda Koroğlunun öz hünərinə yox, "Çənlibel tülküsü" adlandırdığı Həmzənin fəndlərinə inandığını görürük.

**Nəticə.** Azərbaycan ədəbiyyatı da bu baxımdan mifoloji təfəkkürdən, şamanizmdən gələn obrazlarla zəngindir. Klassik ədəbiyyat nümunələrindən tutmuş yeni dövrün ədəbiyyatına qədər ki bu uzun yolda bədii mətninin mövzu və problemləri müxtəlif ideoloji təsirlərə məruz qalsa da, daxili və çoxqatlı özəlliklərini qoruya bildi. Mifin özünüqoruma və bərpa etmə səriştəsi milli ədəbiyyatların alt qatdakı ənənəyə bağlılıq və onu nəsillərə ötürə bilmək funksiyası idi. Bu mənada bədii mətn hər hansı ideoloji və məhəlli xarakterindən asılı olmayaraq onu yaradan etnosun özəlliklərini daşıya bilmək xüsusiyyəti ilə seçilir.

**Ədəbiyyat:**

1. Abdullayev, K. (1985). Müəllif – əsər – oxucu.
2. Bəşirli, X., & Bayat, F. (2013). Azərbaycan folkloru və yazılı ədəbiyyat. Elm və Təhsil.
3. Şərifova, S. (2015). Çağdaş Azərbaycan posmodern romanı. Elm və Təhsil.
4. Tağısoy, N. (2018). Postmodernizmin bəzi xüsusiyyətlərinə fraqmentar baxış. eLibrary.az. https://www.elibrary.az/docs/JURNAL/jrn2018_213.pdf
5. Гадамер, Г. (1991). Актуальность прекрасного. Искусство.
6. Ле Гофф, Ж. (2002). Другое Средневековье: время, труд и культура Запада (пер. с фр.). Изд-во Урал. ун-та.
7. Леви-Строс, К. (1985). Структурная антропология. Наука.
8. Лосев, А. Ф. (2001). Диалектика мифа. Мысль.
9. Мелетинский, Е. М. (2001). От мифа к литературе. Изд. центр Российского гос. Гуманитарн. университета (РГГУ).
10. Мелетинский, Е. М. (1976). Поэтика мифа. Наука. Главная редакция восточной литературы.
11. Hüseynli, G. (2024, dekabr 26). Monomif: tərbiyə romanlarına mifoloji-nəzəri yanaşma [Tezis]. "Dədə Qorqud – 1325" Beynəlxalq elmi konfrans, Bakı Dövlət Universiteti, 28-31.

**Zulfiya Huseynova**

**Summary**

**THE CONCEPT OF MYTHOLOGICAL TIME IN CONTEMPORARY AZERBAIJANI PROSE: A HISTORICAL-AESTHETIC AND GLOBAL CONTEXTUAL ANALYSIS**

Mythology represents one of the earliest forms of human thought, shaping the initial perception of the world, and according to A. Losev, myth is a special mode of thinking that provides a symbolic interpretation of reality. The works of Meletinsky, Cassirer, Levy-Bruhl, and Levi-Strauss demonstrate that myth is a universal phenomenon

embedded in the structures of both archaic and modern cultures. Mythological thinking is not individual but is the product of collective experience and cultural memory, encompassing rituals, beliefs, and worldviews. Since the twentieth century, myth and mythopoetics have regained prominence in world literature, becoming one of the main vectors of remythologization. In this process, myth appears not merely as a traditional plot but as a comprehensive system of thought and a structural model of artistic narrative. Contemporary Azerbaijani prose also reflects this tendency, and the works of Movlud Suleymanli are particularly noteworthy in this regard. In his novels such as *"Köç"* and *"Şeytan"*, mythical time, archaic imagery, and symbolic narration function as the central poetic mechanisms that drive the text. The spiral structure of narration and the use of mythological codes allow for a deeper articulation of the author's worldview. The essential functions of myth explaining the origins of the world, shaping behavioral models, and preserving cultural memory remain relevant today. Therefore, the study of mythological systems in contemporary Azerbaijani prose is significant both for understanding artistic poetics and for exploring collective memory.

**Зульфия Гусейнова**

**Резюме**

**МИФОЛОГИЧЕСКОЕ ПОНИМАНИЕ ВРЕМЕНИ В СОВРЕМЕННОЙ АЗЕРБАЙДЖАНСКОЙ ПРОЗЕ: ИСТОРИКО-ЭСТЕТИЧЕСКИЙ И ГЛОБАЛЬНЫЙ КОНТЕКСТУАЛЬНЫЙ АНАЛИЗ**

Мифология является одной из древнейших форм мышления, формирующей первоначальное восприятие мира, и, по мнению А. Лосева, миф представляет собой особый тип мышления, служащий символическому объяснению реальности. Исследования Мелетинского, Кассирера, Леви-Брюля и Леви-Стросса демонстрируют, что миф является универсальным феноменом, присутствующим как в архаических, так и в современных культурных структурах. Мифологическое мышление не является индивидуальным, но выступает продуктом коллективного опыта и народной памяти, объединяя в себе ритуалы, верования и мировоззрение. С XX века миф и мифопоэтика вновь актуализируются в мировой литературе, становясь одним из ключевых направлений ремифологизации. В этом процессе миф представляет собой не только традиционный сюжет, но и целостную систему мышления и структурную модель художественного текста. Современная азербайджанская проза также отражает данную тенденцию, и творчество Мовлуда Сулейманлы привлекает внимание именно в этом контексте. В его произведениях, таких как «Кёч» и «Шайтан», мифическое время, архаические образы и символическая нарративная организация функционируют как основополагающие поэтические механизмы. Спиралевидная структура повествования и мифологические коды позволяют более глубоко раскрыть авторское мировоззрение. Основные функции мифа – объяснение происхождения мира, формирование моделей поведения и сохранение культурной памяти – сохраняют свою актуальность и сегодня. Следовательно, изучение мифологической системы в современной азербайджанской прозе имеет важное значение как для анализа художественной поэтики, так и для понимания коллективной памяти.

*Rəyçi: akad. M.İmanov*